

# COP29-un ÖLKƏMİZDƏ KEÇİRİLMƏSİ QÜRURVERİCİDİR

**Son zamanlar qlobal iqlim dəyişmələri, anomal istilərə, sel və daşqınlara, ağlagəlməz dağıntılara səbəb olur. Bu kimi hadisələr insanların təbiətə qeyri-normal münasibətindən yaranır. Bu baxımdan, qlobal tədbirlərin keçirilməsi zərurətə çevrilir.**

Ölkəmizin COP29 kimi mötəbər tədbirə ev sahibi seçilməsi Prezident İlham Əliyevin dünya siyasi arenasında nüfuzunu bir daha təsdiq edir. Tədbirə dünyanın bir sıra dövlət və hökumət başçılarının qatılması gözlənilir. Hər bir Azərbaycan vətəndaşı belə mötəbər tədbirin ölkəmizdə keçirilməsini yüksək qiymətləndirir.

**(davamı 5-ci səhifədə)**

# COP29-un ÖLKƏMİZDƏ KEÇİRİLMƏSİ QÜRURVERİCİDİR

(əvvəli 1-ci səhifədə)

Tovuz Rayon Heydər Əliyev Mərkəzinin direktoru Humay Aslanova Azərbaycanın COP29-a ev sahibliyi etməsindən qürur duyduğunu bildirdi. Həmsöhbətim qeyd etdi ki, Azərbaycan COP29-a ev sahibliyi edəcək ölkə kimi, "yaşıl enerji"yə keçid prosesində fəallıq göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 21-də "Euronews"a verdiyi müsahibəsində toxunduğu bir sıra məsələlər bu günün reallıqlarını əks etdirir. İqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi hazırkı dövrün əsas çağırışlarındandır. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi Azərbaycanın iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə, həmçinin bu istiqamətdə beynəlxalq həmrəyliyin gücləndirilməsinə verdiyi töhfələrə işıq salır. Azərbaycan daim dünyaya çağırış edir ki, qlobal problemlərin həllində birlik, həmrəylik vacibdir. Dövlət başçısı İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində bir mühüm məqamı da xüsusi qeyd etdi ki, hər yeni iş qeyri-müəyyənliklərlə dolu olur. Lakin bizim böyük tərəfdaşlarımız var. Artıq "Masdar" strateji tərəfdaşdır. Həmçinin "ACWA Power" var. Bp sərmayədarlarımız sırasındadır. Bərpaolunan enerjidən istifadəyə olduqca düşünülmüş yanaşma tətbiq edilməlidir ki, elektrik enerjisi maksimum istehsal olunsun və təbii qaza qənaət edilsin. Beynəlxalq tərəfdaşlıq tələb edən məsələləri birgə həll etməliyik.

COP tədbirləri dünya liderlərini bir araya gətirən toplantı kimi tarixə düşüb. 197 ölkəni özündə birləşdirən Tərəflər Konfransına Azərbaycanın ev sahibliyi təsadüfi deyil. Bu, ilk növbədə, Azərbaycanın diplomatik uğurudur, xarici siyasətimizin dəyişməz prinsipləri yeni dostlar və tərəfdaşlar qazanmasında stimulverici amildir. Ölkəmiz böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı maraq və hörmət prinsipləri əsasında əlaqələr qurur və onların inkişaf etdirilməsinə səy göstərir. Ölkəmiz etibarlı və arzuolunan tərəfdaş kimi dünya dövlətlərinin diqqətində olması, Avropanın enerji təhlükəsizliyinin təminatında həlledici rol oynaması uğurlu xarici siyasətinin nəticəsidir. İqtisadiyyatını düzgün əsaslar üzərində quran Azərbaycan dünya birliyi ilə əməkdaşlığa regional çərçivədən başlasa da illər keçdikcə coğrafiyasını daha da genişləndirir. Ən əsası Azərbaycanın dövrün hər bir çağırışını zamanında dəyərləndirməsi uğurlarımızın davamlılığında öz sözünü deyir. Ölkəmizin iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələri dünyanın enerji xəritəsini yenidən tərtib edir. Tarixən neft ölkəsi kimi tanınan və nüfuz qazanan Azərbaycan bu gün qaz və elektrik enerjisi ixracatçısına çevrilib. Ölkəmizin COP29-a ev sahibliyi etməsi Azərbaycanı qlobal səviyyədə iqlim dəyişmələri ilə mübarizə aparan dövlət kimi tanıdıb. Tədbir çərçivəsində Azərbaycanın bərpaolunan enerji mənbələrinin inkişafı, "yaşıl enerji"yə keçid və iqlim dəyişmələri ilə mübarizədə qarşısına qoyduğu məqsədlər və bu istiqamətdə gördüyü işlər daha geniş auditoriyaya çatdırılacaq. "Yaşıl enerji" növlərinin yaradılması və bu enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. Bütün bunların fonunda Azərbaycanın COP29-a ev sahibliyi etməsi beynəlxalq ictimaiyyət tərəfindən dövlətimizə böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional, qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Son illər Azərbaycan bərpaolunan enerji mənbələrinin inkişaf etdirilməsi, o cümlədən külək və günəş enerjisi stansiyalarının qurulması baxımından böyük işlər görüb. Dövlət başçısı İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində bildirdi ki, bu, yalnız başlanğıcdır. Çünki biz orta perspektivdə 10 qiqavata və 2030-cu ilədək 5 qiqavata qədər gücü əhatə edən bütün müqavilələri və anlaşma memorandumlarını icra etməyi planlaşdırırıq.

Azərbaycan Qara dənizin dibi ilə sualtı kabel vasitəsilə "yaşıl enerji"nin Avropaya ixracı layihəsini icra etməkdədir. Bu layihənin uğurlu sonluqla başa çatmasından sonra Azərbaycan Avropanın əsas "yaşıl enerji" təchizatçılarından birinə çevriləcək. COP29-a ev sahibliyi bu prosesin davamıdır və ölkəmizin "yaşıl enerji"yə keçid və bərpaolunan enerji mənbələrinin inkişafı ilə bağlı qarşısına qoyduğu məqsədlərə çatmasına öz töhfəsini verəcək.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

Respublika .- 2024.- 26 iyul (№ 156).- S.1;5.